

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 23 (23.665)

*4 fevral 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib.

Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini də videoformatda qəbul edib.

## Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi D.Y.Səfərovun vəzifəsinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təklifini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini və 97-ci maddəsinin ikinci hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Daşqın Yaqub oğlu Səfərov Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 fevral 2021-ci il*

* * *

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 fevral tarixli Sərəncamı ilə bir sıra birinci instansiya məhkəmələrinə hakimlər təyin edilmişdir. Təyin edilənlər arasında Naxçıvan Muxtar Respublikası birinci instansiya məhkəmələrinin hakimləri də vardır.

Orucəliyev Abil Elmar oğlu

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin;**

İsmayıl Günay Mikayıl qızı

**Babək Rayon Məhkəməsinin;**

Əliyeva Gülsüm Kamal qızı

**Naxçıvan Şəhər Məhkəməsinin**

hakimi təyin edilmişlər.

## İlin yekunları müzakirə olunub



***"Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının 2020-ci ildə xidməti döyüş fəaliyyətinin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələrə dair Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində müşavirə keçirilib.***

Müşavirəni Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov açıb. Hesabat məruzəsi ilə geniş çıxış edən "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev ötən il briqada qarşısında qoyulan vəzifələrin icrası istiqamətində görülən işlər barədə geniş məlumat verib.

Məruzə ətrafında müzakirələr aparıldıqdan sonra müşavirədə çıxış edən Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov bildirib ki, Naxçıvan Muxtar Respublikasında dayanıqlı xarakter almış ictimai-siyasi sabitlik və davamlı inkişaf ümummilli lider Heydər Əliyevin müəllifi olduğu siyasi strategiyanın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Ötən 25 il ərzində muxtar respublikada hərbi quruculuq sahəsində də xeyli iş görülüb, buradakı qoşun hissələrinin maddi-texniki bazalarının gücləndirilməsi, hərbçilərin ailə-məişət şəraitinin yaxşılaşdırılması, əsgərlərdə vətənpərvərlik ruhunun yüksəldilməsi diqqətdə saxlanılıb.

Vurğulanıb ki, ötən il 44 günlük Vətən müharibəsində naxçıvanlı əsgər və zabitlərin göstərdikləri şücaət muxtar respublikada hərbçilərin, eyni zamanda gənclərin necə vətənpərvər ruhda böyüməsinin əyani sübutu oldu.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında Silahlı Qüvvələrin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, 2020-ci ildə "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi bütün zəruri avadanlıq və xüsusi vasitələrlə tam təchiz edilib, möhtəşəm əsgəri-məişət kompleksi tikilib şəxsi heyətin istifadəsinə verilib, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2 ədəd "Mitsubishi L-200" markalı minik avtomobili hərbi hissəyə hədiyyə olunub.

Bildirilib ki, bu gün Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası 2020-ci ildə Naxçıvan Muxtar Respublikasında Türkiyə Respublikasının hərbçiləri ilə birgə təşkil olunmuş "Sarsılmaz qardaşlıq – 2020" adı altında keçirilən əməliyyat taktiki təlimlərdə, Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları ilə birgə təşkil olunan mütəxəssis toplanışlarında, eləcə də Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə keçirilən xüsusi taktiki təlimlərdə uğurla iştirak ediblər. Bundan əlavə, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası son 3 ildə Daxili Qoşunların Baş İdarəsi tərəfindən keçirilən inspeksiya yoxlamalarının nəticələrinə görə Daxili Qoşunların hərbi hissələri arasında ən yaxşı nəticə göstərərək birinci yerə layiq görülüb.

Vurğulanıb ki, ötən il qarnizonla birgə təsdiq olunmuş "Uzlaşma planı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən yüksək qiymətləndirilib, 2021-ci ildə bu sahədə görüləcək işlərin daha effektli təşkil olunması hərbi hissələrin qarşısına xüsusi tapşırıq kimi qoyulub.

Sonda Daxili İşlər naziri tərəfindən "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının qarşısına müvafiq tapşırıqlar qoyulub.

✍ **Muxtar MƏMMƏDOV**

## Yeni tədris ilinə başlanılıb

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında 2021-ci tədris ilinin başlanması ilə bağlı tədbir keçirilib. Əvvəlcə Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi yad olunub.*



Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev çıxışında bildirib ki, 2021-ci tədris ilinə hazırlıq tədbirləri çərçivəsində Mülki Müdafiə Alayının şəxsi heyətinə sıra baxışı keçirilib, bölmələrin maddi-tədris bazaları və tam təchizatı yoxlanılıb.

Qeyd edilib ki, Fövqəladə Hallar Nazirliyi ötən il də qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışıb. Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin qərargahları ilə ayrılıqda və birgə qərargah məşqləri, taktiki-xüsusi təlimlər, gündəlik həyat fəaliyyətinin təmin edilməsi, qoşun xidmətinin təşkili və aparılması üzrə nümunəvi məşğələlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 12 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Hərbi Qarnizonu qoşunlarının qarşılıqlı fəaliyyətinin təşkilinə dair Tədbirlər Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Mülki Müdafiə Alayı da Əlahiddə Ümumqoşun Orduda keçirilən toplantılarda və çöl-səhra çıxışlarında uğurla təmsil olunub. 2020-ci tədris ilinin "Uzlaşma planı"na uyğun olaraq Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedicilərı "Qar uçqunlarında xilasetmə işlərinin aparılması" mövzusunda Batabat bölgəsində ayrıca, həmçinin Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə qarşılıqlı əlaqədə təlimlərin keçirilməsinə cəlb olunub.

Məruzə ətrafında müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Melioratorlar yaz suvarma mövsümünə hazırlaşır

Muxtar respublikada su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi diqqət mərkəzində saxlanılır, ardıcıl meliorasiya və irriqasiya tədbirləri görülür. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları 2021-ci ildə də bu işləri uğurla davam etdirməyi qarşılarına məqsəd qoyublar.

Yanvar ayında yaz suvarma mövsümünün səmərəli və mütəşəkkil aparılması məqsədilə 7,3 kilometr



beton və torpaq kanal, 16,8 kilometr ara arxlar, 6 kilometr kollektor lildən təmizlənmiş, 4 kilometr yeni suvarma xətti çəkilmiş, 600 metr açıq drenaj kanalı qazılmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Şərur rayonunda Həmzəli səlovunda 600 metr istiqamətləndirici bənd tikilmişdir. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması həsabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Kəngərli rayonunun Böyükdüz kəndini əhatə edən 339 hektarlıq qapalı suvarma şəbəkəsində 3,5 kilometr suvarma boru xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün yeni içməli su xətləri çəkilmiş, mövcud xətlərdə təmir-bərpa işləri yerinə yetirilmişdir. Hesabat ayında 2 kilometr içməli su xətti çəkilmiş, 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilmiş, 39 subartezian quyusu təmir olunmuşdur. 2021-ci ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq təmirə ehtiyacı olan maşın-mexanizmlərin, nasos stansiyalarının mexaniki və elektrik avadanlıqlarının təmir olunaraq işlək vəziyyətə gətirilməsi işləri davam etdirilir.

Ötən ay "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Şərur, Babək, Ordubad, Sədərək və Kəngərli rayonlarında müvafiq işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

***Ölkəmizdə insanların məşğulluğu ilə bağlı həyata keçirilən tədbirlər, yeni iş yerlərinin yaradılması dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqləyir. Məşğulluğun yüksək səviyyədə həlli üçün yeni yollardan, ehtiyat mənbələrindən istifadə olunur. Naxçıvan Muxtar Respublikasında da sosialyönümlü iqtisadi inkişafın təmin olunması ilə bağlı həyata keçirilən tədbirlər içərisində əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər mühüm yer tutur. Səmərəli məşğulluğun inkişafına yönəldilən siyasi, iqtisadi, sosial və institusional mühitin yaradılması əsasında məşğulluq sahəsində prioritet istiqamətlərin həyata keçirilməsi əhalinin rifahının yüksəldilməsində mütərəqqi əhəmiyyətə malikdir. Görülən işlərin kompleks xarakter almasında icra edilən Dövlət proqramlarının xüsusi rolu vardır.***

# Dövlət proqramı uğurla icra olunmuşdur







Ötən dövrdə Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2007-2010-cu və əhalinin məşğulluğunun artırılması üzrə 2014-2015-ci illəri əhatə edən Dövlət proqramlarının icrası yeni açılan iş yerlərinin sayının artmasına, cəmiyyətin müxtəlif sosial kateqoriyalarına məxsus şəxslərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası isə görülən işlərin əhatə dairəsinin genişlənməsinə səbəb olmuşdur.

Proqramın 5 il ərzində uğurla icra olunması muxtar respublikada 12 min 479 yeni iş yerinin açılmasına, əhalinin səmərəli məşğulluğunun inkişafına, əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılmasına, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılmasına gətirib çıxarmışdır. Həmin dövrdə əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə tədbirlərin reallaşdırılması da diqqət mərkəzində olmuşdur. Bu məqsədlə 2016-cı ildə 163, 2017-ci ildə 167, 2018-ci ildə 336, 2019-cu ildə 226, 2020-ci ildə 178 müəssisədə sorğu keçirilmişdir. Keçirilən sorğular nəticəsində əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi təmin olunmuşdur.

Dövlət proqramının icrası muxtar respublikamızın sosial əmək potensialından səmərəli istifadəni təmin etmiş, işaxtaranların vakant iş yerlərinə göndərilməsi intensiv xarakter almışdır. Belə ki, 2016-2020-ci illərdə məşğulluq orqanları tərəfindən 14 min 699 nəfər vakant iş yerlərinə göndərilmişdir. İşə göndərilənlərin 4 min 815-ni gənclər, 3 min 502-ni qadınlar, 446-nı sağlamlıq imkanı məhdud şəxslər təşkil etmişdir. İşaxtaran vətəndaşların müvəqqəti məşğulluğunun təmin edilməsi diqqət mərkəzində olmuş, 1284 işaxtaran sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. Bunlardan 341-i qadınlar, 273-ü gənclər, 183-ü isə sağlamlıq imkanları məhdud şəxslər olmuşdur. Dövlət proqramının icrasına uyğun olaraq 2016-2020-ci illərdə tətil günlərində işləmək istəyən 206 tələbə mövsümi işlərə cəlb edilmiş, hərbi xidmətdən yeni tərxis olunan 159 nəfər işlə təmin olunmuşdur.

Muxtar respublikamızda həyata keçirilən abadlıq-quruculuq tədbirləri şəhər və kəndlərimizin simasını bütövlükdə dəyişməklə yanaşı, müxtəlif fəaliyyət sahələri üzrə müasir iş şəraitinin yaradılmasına da xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə muxtar respublikanın kəndlərində sosial infrastruktur obyektlərinin istifadəyə verilməsi yeni iş yerlərinin açılmasına və əhalinin səmərəli məşğulluğunun təmin olunmasına imkan yaradır. Dövlət proqramının icrasına uyğun olaraq 2016-2020-ci illərdə kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, qadın gözəllik salonu və dərzi sexlərində 363 nəfərin işlə təmin edilməsi Naxçıvanda sosial-iqtisadi fəaliyyətin bütün sahələrində effektiv məşğulluğun təmin olunmasına göstərilən diqqətin mühüm təzahürüdür.

Proqramın icrası məqsədilə həyata keçirilən mühüm tədbirlərdən biri də vaxtaşırı əmək yarmarkalarının təşkil edilməsidir. Bu istiqamətdə ötən 5 ildə keçirilən əmək yarmarkalarında 2 min 439, təhsil yarmarkalarında 519, səhiyyə işçiləri üçün təşkil olunan yarmarkalarda 197 olmaqla, ümumilikdə, 3 min 155 nəfər işlə təmin edilmişdir. Bu yarmarkaların səciyyəvi xüsusiyyəti işaxtaranların malik olduqları ixtisasa uyğun iş seçməsi üçün geniş imkanların mövcudluğu, eləcə də müxtəlif sahələr üzrə fəaliyyət göstərən müəssisə və təşkilatların bacarıqlı kadrlarla təmin edilməsidir.

Aktiv məşğulluq tədbirləri içərisində yeni iş yerlərinin yaradılması məqsədilə sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi xüsusi önəm kəsb edir. Bu tədbir bir tərəfdən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və genişləndirilməsi üçün stimullaşdırıcı xarakter daşıyır, digər tərəfdən müxtəlif təyinatlı müəssisələrdə yeni iş yerlərinin açılması ilə nəticələnir. Proqramın icrasına uyğun olaraq 2016-2020-ci illərdə kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə 332 layihənin maliyyələşdirilməsinə 48 milyon 477 min 442 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Sahibkarlığın inkişafını şərtləndirən tədbirlər içərisində dövlət maliyyə dəstəyinin göstərilməsi ilə yanaşı, bu fəaliyyətə yeni başlamaq istəyənlər üçün müvafiq kursların təşkili də başlıca rol oynayan amillərdəndir. Çünki düzgün istiqamətləndirmə və uğurlu plan əsasında qurulan iqtisadi fəaliyyətin nəticəsi də effektiv olur. Dövlət proqramında da bu məqsədlə müxtəlif tədbirlərin təşkilini nəzərdə tutan tapşırıq müəyyən edilmişdir. 2016-2020-ci illərdə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün 5 kurs, 4 seminar, 3 təlim keçirilmiş, 280 halda şifahi konsaltinq xidməti göstərilmişdir. Görülən işlər müasir dövrün iqtisadi reallıqlarına uyğun səmərəli fəaliyyətin təşkili üçün hərəkətverici qüvvəyə çevrilmişdir.

Muxtar respublikamızın təhsil sistemində peşə hazırlığına prioritet məsələlərdən biri kimi üstünlük verilir, sosial-iqtisadi inkişaf tempinin tələbinə uyğun ixtisaslı peşə sahiblərinin yetişdirilməsi diqqətdə saxlanılır. Dövlət proqramının icrası məqsədilə əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif ixtisaslar üzrə peşə hazırlığının təşkili peşəkar kadrların hazırlanmasına imkan yaradır. Bu istiqamətdə 2016-2020-ci illərdə Naxçıvan Regional Peşə-Tədris Mərkəzində təşkil edilmiş kursları 1797, məhkumlar üçün cəzaçəkmə müəssisələrində təşkil olunmuş kursları 133, Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrində keçirilən kursları 14 min 672 nəfər olmaqla, ümumilikdə, muxtar respublika üzrə peşə kurslarını 16 min 602 nəfər bitirmişdir. Bütün bunlarla yanaşı, muxtar respublikada fəaliyyət göstərən müəssisələr üzrə işəgötürənlərlə keçirilmiş sosial tərəfdaşlıq mövzusuna həsr edilən 5 görüşdə əcnəbi işçi qüvvəsinin cəlb edildiyi yerlərin tələbatının yerli əmək bazarından təmin edilməsinin məqsədəuyğunluğu barədə məlumat verilmişdir.

Müasir dövrün reallıqlarından biri də ondan ibarətdir ki, mövcud peşələrin kəmiyyət və keyfiyyət etibarilə kifayət qədər rəngarəng olması yeniyetmələrin peşə müxtəlifliyi qarşısında düzgün seçim etməsini çətinləşdirir. Bu faktor nəzərə alınaraq Dövlət proqramında ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Ötən 5 il ərzində qeyd edilən tapşırığın icrası nəzarətdə saxlanılmış, məşğulluq xidməti orqanlarının əməkdaşları tərəfindən ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 19 min 425 şagirdə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi təmin olunmuşdur.

Naxçıvanda sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlərin əsasını insan amili təşkil edir. Cəmiyyətin bütün sosial kateqoriyalarından olan şəxslər dövlət qayğısı ilə əhatə olunur, onların ehtiyaclarının təmin edilməsi üçün bütün imkanlar səfərbər edilir. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya olunması sahəsində görülən işlərin miqyası genişlənir, abadlıq-quruculuq tədbirləri, sosial infrastrukturun yaradılması zamanı bu şəxslərin rahatlığının təmin olunması ön planda tutulur. Sosial qayğıya ehtiyacı olan şəxslərə diqqətin digər göstəricisi isə onların məşğulluğunun təmin olunması ilə bağlı reallaşdırılan layihələrdir. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların yüksək peşəkarlıqla icra edilməsi sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası sahəsində yeni nailiyyətlərin əldə olunması ilə nəticələnmişdir. 2016-2020-ci illərdə muxtar respublikanın şəhər və rayonlarında dövlət və özəl müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün kvota yerləri müəyyən edilmişdir. Ümumilikdə, bu kateqoriyadan olan və işə düzəlməkdə çətinlik çəkən 76 nəfər kvota yerlərinə işə göndərilmişdir. Eyni zamanda müvafiq peşə təhsilinə malik sağlamlıq imkanları məhdud şəxslərdən 446-sı iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuş, bu kateqoriyadan olan 132 nəfər peşə təhsilinə cəlb edilmişdir. Sağlamlıq imkanları məhdud və evdar qadınların müvəqqəti məşğulluqlarının təmin edilməsi diqqətdə saxlanılmış, onlarla bağlanmış müqavilələr əsasında 4 min 293 səməni haqqı ödənilərək alınmış, yundan hazırlanan 15 min 407 cüt corab, 2 min 434 şərf və 2 min 900 boyunluq toxunaraq hərbi hissələrə təhvil verilmişdir. Həmçinin bu dövrdə sağlamlıq imkanları məhdud şəxslərin hazırladıqları 7 min 892 adda müxtəlif əl işlərinin satışının həyata keçirilməsi onların özünüməşğulluğunun təmin edilməsinə şərait yaratmışdır.

Naxçıvanda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi, bununla da fəal həyat mövqeyinin formalaşması daim diqqətdə saxlanılır. Bu istiqamətdə görülən işlər həmin ailələrin gəlirlərinin artırılmasına, ailə sahibkarlığının inkişafına gətirib çıxarır. 2016-2020-ci illərdə muxtar respublikada 595 aztəminatlı ailənin özünüməşğulluğunun təmin olunmasına, fərdi təsərrüfatının yaradılmasına və inkişaf etdirilməsinə köməklik göstərilmişdir. Bu ailələrdə 157 sağlamlıq imkanları məhdud, 24 müharibə veteranı, 89 ailə başçısını itirən, 57 nikahı pozulan, 17 cəzaçəkmə müəssisələrindən azad edilən, 7 həyat yoldaşı məhkum olunmuş sosial statuslu üzvlər vardır. Əvvəlki dövrlərdə özünüməşğulluq proqramına cəlb edilmiş 19 nəfərə əlavə kənd təsərrüfatı avadanlığının verilməsi isə bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter daşıdığını deməyə əsas verir.

Dövlət proqramında əməyin mühafizəsi məqsədilə nəzərdə tutulan tədbirlərin mühüm sosial əhəmiyyəti vardır. Bu istiqamətdə görülən işlər işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsinə, işçilərin əmək hüquqlarının müdafiəsinin təmin olunmasına şərait yaratmaqdadır. Onu da qeyd etmək lazımdır ki, işçilər üçün təhlükəsiz iş şəraitinin yaradılması məqsədilə həyata keçirilən tədbirlər muxtar respublikamızda insan sağlamlığının qorunması ilə bağlı görülən işlərin tərkib hissəsini təşkil edir. Bu istiqamətdə mütərəqqi əhəmiyyət kəsb edən digər mühüm tədbir isə işçilərlə bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə müqavilələrin bağlanmasıdır. Qeyd edilən tədbirlərin uğurla reallaşdırılması Dövlət proqramının icrası nəticəsində əldə edilən nailiyyətlərin sayını daha da artırmışdır. 2016-2020-ci illərdə qeyri-formal məşğulluğun qarşısının alınması və işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsi məqsədilə 2 min 60 sahibkarlıq obyektində monitorinqlər aparılmışdır. Proqramın icra müddəti ərzində yeni əmək fəaliyyətinə başlayan 14 min 356 sığortaolunana elektron qaydada sosial sığorta şəhadətnaməsi sifariş edilmişdir. Həmçinin 385 obyektdə aparılan nəzarət zamanı fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 831 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 405 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Bu dövrdə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə 181 min 677 nəfərlə sığorta müqaviləsi bağlanmışdır.

Müəssisələrdə əməyin mühafizəsi və kadrlar üzrə mütəxəssislərin biliklərinin artırılması məqsədilə Naxçıvan Regional Peşə-Tədris Mərkəzində "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" və "İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi" mövzularında təşkil edilmiş 8 kursa 79 müəssisənin, 56 seminara isə 990 müəssisənin mütəxəssisləri cəlb olunmuşdur. 2019-cu ildə muxtar respublikada ilk dəfə olaraq "Əməyin mühafizəsi" adlı rüblük elektron jurnalın istifadəyə verilməsi bu sahədə geniş təbliğat işinin aparılması üçün yeni imkanlar yaratmışdır.

Proqramda nəzərdə tutulan həvəsləndirmə xarakterli tapşırıqların icrası isə işəgötürənlərin yeni iş yerlərinin yaradılması ilə bağlı fəallığının artırılmasına səbəb olmuşdur. Belə ki, işəgötürən sahibkarların həvəsləndirilməsi üçün "Ən fəal işəgötürən" nominasiyası üzrə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində 22 yanvar 2016-cı il və 25 aprel 2017-ci il tarixlərdə tədbirlər keçirilmiş, müsabiqə qalibləri mükafatlandırılmışdır.

Proqramın icra olunduğu müddət ərzində maarifləndirici xarakter daşıyan tədbirlərin həyata keçirilməsi də diqqətdə saxlanılmış, məşğulluq sahəsində görülmüş işlərə dair Naxçıvan Dövlət Televiziyasında 112 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 63 yazı dərc olunmuşdur.

*2016-2020-ci illərdə icrası uğurla həyata keçirilən Dövlət proqramının məntiqi davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq olunmuşdur. Yeni Dövlət proqramı bu sahənin muxtar respublikada yeni mərhələdə inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Proqramda da qeyd olunduğu kimi: "2021-2025-ci illəri əhatə edəcək yeni proqram da muxtar respublikada əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edəcəkdir".*

**"Şərq qapısı"**

## *"Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə"* üççildlik təfsirin təqdimatı keçirilib





*AMEA Naxçıvan Bölməsində dünyanın tanınmış irfan alimlərindən olan Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" ("Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi") adlı üççildlik təfsirinin təqdimatı olub.*

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, Ali Məclis Sədrinin 2018-ci il 29 oktyabr tarixli Sərəncamı ilə "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib və həmin dövrdən nəzərdə tutulan vəzifələrin icrasına başlanılıb. Ötən müddət ərzində AMEA Naxçıvan Bölməsində Nemətullah Naxçıvani irsinin öyrənilməsi üçün 7 nəfərdən ibarət tədqiqat qrupu yaradılıb, Türkiyə Respublikasının Konya şəhərinə tədqiqatçı-mütəxəssislər göndərilib. Səfər çərçivəsində "Naxçıvandan Konyaya bir körpü: Nemətullah Naxçıvani" mövzusunda konfrans keçirilib. Eyni zamanda nümayəndə heyəti Nemətullah Naxçıvaninin məzarını ziyarət edib, Ağşəhərdə Nemətullah Naxçıvani adına İmam Hatib dini orta məktəbində olub. Ağşəhər bələdiyyəsi Türkiyədə çap edilmiş Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" adlı beşcildlik təfsirini nümayəndə heyətinə təqdim edib.

Qeyd edilib ki, müvafiq sərəncamın icrasına uyğun olaraq Naxçıvanda "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzusunda beynəlxalq konfranslar keçirilib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə konfrans materialları əsasında "Görkəmli Azərbaycan mütəfəkkiri Nemətullah Naxçıvani" adlı kitab nəşr edilib. Bundan əlavə, Bilik Fondu AMEA Naxçıvan Bölməsinin hazırladığı "Nemətullah Naxçıvani: taleyi və sənəti" adlı kitabın, həmçinin bu gün təqdimatı keçirilən alimin türk dilindən tərcümə edilən "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" adlı üççildlik təfsirinin də nəşrini həyata keçirib. Sərəncamın icrası məqsədilə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən "Təfsir alimi Nemətullah Naxçıvani" sənədli filmi hazırlanıb, mətbuat materialları və keçirilən tədbirlər işıqlandırılıb. Akademik İsmayıl Hacıyev mükəmməl ümumiləşdirmənin zəngin bəhrəsi olan üççildlik təfsirin işıq üzü görməsinə, Nemətullah Naxçıvani irsinin öyrənilməsi və təbliğinə göstərdiyi yüksək diqqət və qayğıya görə bütün elm və ictimaiyyət nümayəndələri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək muxtar respublika rəhbərinin şəxsi təşəbbüsü ilə, tövsiyə və tapşırıqlarına əsasən qədim diyarın tarixinin, görkəmli tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin, siyasi, elmi, ədəbi irslərinin tədqiqi və təbliği istiqamətində görülən çoxsaylı tədbirlərdən danışıb. Bildirib ki, Nemətullah Naxçıvani məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi nəinki Azərbaycan və Türkiyədə hətta bütün dünyada tanınır və böyük ehtiramla anılır. Onun Azərbaycan, ərəb, fars və türk dillərində yazdığı əsərləri hazırda Türkiyədə kitabxana və muzeylərdə saxlanılır. Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun köməyi ilə Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan 12 əlyazma nüsxəsinin elektron variantı AMEA Naxçıvan Bölməsinə təqdim edilib.

Qeyd olunub ki, dərin biliyə və yüksək mənəvi keyfiyyətlərə malik olan Nemətullah Naxçıvaninin digər təfsirlərə müraciət etmədən yazdığı "Qurani-Kərim"in elmi-nəzəri şərhi olan "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" əsəri islamşünaslığa və bütünlükdə müsəlman dünyasına ən böyük töhfədir. Orijinal əl yazısı ərəb dilində olan bu əsər Topqapı sarayı III Əhməd xan kitabxanasında mühafizə edilir. 1908-ci ildə Türkiyədə Osmaniyyə mətbəəsində 2 cilddə nəşr olunub. Əsər "Qurani-Kərim"in 114 surəsinin təfsirini əhatə etməklə, insanı kamilliyə aparan yoldan, Allahın qüdrətindən və peyğəmbərlik məqamının yüksəkliyindən bəhs edir.

Vurğulanıb ki, üççildlik təfsirin Azərbaycan dilində ilk nəşri din tarixində xüsusi əhəmiyyəti ilə seçilir. Məşhur din alimi Nemətullah Naxçıvaninin təfsirinin digər təfsirlərdən üstünlüyü ondadır ki, Quran surələrinin hər ayəsinin izahı ayrı-ayrı verilib, İslam tarixində ilk mükəmməl təfsir hazırlanıb. Nemətullah Naxçıvaninin təfsirinin tərcüməçisi AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova bu işi ilə Azərbaycan mənəvi fikir tarixinə böyük töhfə verib. Ali İhsan Turcanın türk dilinə tərcüməsi əsasında hazırlanan bu nəşr sadə və anlaşıqlı olması, dini ifadə və ibarələrin düzgün seçilməsi ilə fərqlənir.

Tədbirə onlayn şəkildə qoşulan, təfsiri orijinal nüsxədən türk dilinə tərcümə edən din alimi Ali İhsan Turcan, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şuranın sədri Sahib Məmmədov və təfsiri türk dilindən tərcümə edən, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova çıxış edərək görkəmli İslam aliminin həyat və fəaliyyətindən, keçirilən tədbirlərdən, nəşrin əhəmiyyətindən, təfsirlərin mahiyyətindən geniş söhbət açıblar.

Sonra Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" adlı üççildlik təfsirindən ibarət sərgiyə baxış olub.

**Nail ƏSGƏROV**

*38 yaşlı polkovnik-leytenant Nicat Zeynalov bu gün qazi kimi Bakı şəhərində müalicələrə cəlb olunsa da, ürəyi cəbhə dostlarının, zabit yoldaşlarının, əsgərlərinin yanındadır. Düzdür, gündəlik olaraq həmin insanların bir çoxu onu yoluxmağa gəlir, darıxmağa qoymur, 44 günlük müharibədə yaşadıqlarını xatırlayırlar.*

## Hər birimiz üçün 44 rəqəmi müqəddəslik rəmzinə çevrilib




...1982-ci ildə Naxçıvan şəhərində anadan olan Nicat ibtidai təhsilini Hüseyn Cavid adına 5 nömrəli məktəbdə alıb. Tam orta məktəbi isə Bakı şəhərində bitirib. İlk hərbi təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə alıb, 1999-cu ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, buranı Qoşunların və donanmanın kimya təminatı ixtisası üzrə bitirib. Leytenant rütbəsi ilə hərbi qulluğa başlayıb.

2004-cü ildən 2020-ci ilə qədər Bakı, Cəlilabad, Füzuli, Beyləqan rayonlarında qulluq edib. 2019-cu ildə polkovnik-leytenant hərbi rütbəsi alıb. Bu illər ərzində ABŞ, Almaniya, Qətər, Türkiyə, Slovakiya, Bolqarıstanda bir sıra təlim kurslarına cəlb edilib.

Xidmət müddəti dövründə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, həmçinin "Qüsursuz xidmətə görə" medalının hər 3 dərəcəsi ilə təltif olunub, fəxri fərmanlar alıb.

Müsahibim deyir ki, Azərbaycan dünyada sülhsevər, humanist dəyərlərə yüksək önəm verən bir ölkə kimi tanınır. Elə işğal altında olan torpaqlarımızı bu amillərə əsaslanaraq sülh yolu ilə azad etməyə çalışsaq da, erməni xisləti buna imkan vermədi. Xatırlayırsınızmı, ölkə Prezidenti bunu dəfələrlə bəyan etmişdi və deyirdi ki, hərbi yol sonuncudur. Lakin öz havadarlarına, ATƏT-in Minsk qrupuna arxayın olan Ermənistan bunu qulaqardına vurmaqda davam edirdi. Azərbaycan xalqına ikinci müraciətində dövlət başçısı bu məsələni bir daha xatırladaraq dedi: ***"Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb... Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir, kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə – danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişik, ədalətli mövqe göstərmişdik".***

Lakin ermənilər, bayaq da dediyim kimi, Azərbaycanın bu sülhsevər mövqeyini qiymətləndirə bilmədi. Sentyabr ayının 27-də bir neçə istiqamətdən müxtəlif növ silahlardan, ağır artilleriyadan istifadə edərək həm yaşayış məntəqələrimizi, həm də hərbi mövqelərimizi atəşə tutdular.

Atalarımız yaxşı deyiblər ki, səbrin də bir həddi var. Həmin gün səbir kasası dolan xalqımız ayağa qalxdı, silaha sarıldı və 44 gün ərzində böyük və tarixi Qələbəyə imza atdı. Ona görə də bu gün 44 rəqəmi hər birimiz üçün müqəddəslik rəmzinə çevrilib.

Polkovnik-leytenantdan 44 günlük müharibə haqqında bir qədər məlumat verməyi xahiş edirəm. Bir anlıq fikrə gedir...

– Müharibə hər bir dövlətə böyük zərbə vuran, ağır itkilər verən dağıdıcı prosesdir. Bizim cəlb edildiyimiz müharibə isə ərazi bütövlüyümüz uğrunda böyük azadlıq mücadiləsi idi. Odur ki, bu yolda çoxlu vətəndaşımız şəhid oldu, öz adlarını tariximizin qızıl səhifələrinə yazdılar. Bu mücadilədə qələbə qazanılmasının başlıca səbəblərini gördüm. Təhsil aldığım illərdə müəllimlərimdən eşitdiklərimin həqiqət olduğunu təsdiqlədim. Müasir hərbi silahlar, onlardan düzgün istifadə etmək bacarığı və yüksək psixoloji hazırlıq. Daha dəqiq desəm, döyüşə qələbə əzmi ilə atılmaq. Bütün bunlar dövlət-ordu və xalq birliyinin ifadəsi idi. Cəbhədə döyüşən hər bir əsgər, zabit bilirdi ki, onun arxasında güclü dövlət və dövlətini, torpağını sevən xalq dayanıb. Bu barədə çox danışmaq olar. Ancaq 44 günlük müharibəni hamımız yaşamışıq və neçə vaxtdır ki, Qələbə ovqatındayıq. Şəhidlərimizə gəldikdə isə nə qədər Azərbaycan xalqı var, onlar da qəlbimizdə yaşayacaqlar. Mən ərazilərimizin erməni qəsbkarlarından təmizlənməsində, onların çoxlu canlı itki verməsində və texnikasının sıradan çıxarılmasında igidlərimizin qəhrəmanlığını gözümlə bir daha inandım ki, belə oğulları olan Vətən basılmaz. Bu gün onların ruhu qarşısında baş əyirəm. 44 günlük müharibədən mənim kimi qazi olaraq qayıdanlara sağlamlıq arzulayıram. Dövlətimizə minnətdarlığımı bildirirəm ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "Döyüşlərdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülmüşəm. Bizim qayğımıza qalan bütün tibb işçilərinə də "çox sağ olun", – deyirəm. Ən böyük arzum isə sağaldıqdan sonra doğma Naxçıvana qayıtmaq, valideynlərimlə, qohum-əqrəbamla, döyüşlərdə şəhid olmuş naxçıvanlı igidlərin yaxınları ilə görüşmək, sonra yenidən qulluğa qayıdaraq artıq azad olunmuş torpaqlarımızın keşiyində durmaqdır.

*Nicatın bu ülvi arzularına çatması diləyi ilə.*

**Muxtar MƏMMƏDOV**

## Türkiyə Təqaüd Proqramı ilə bağlı görüşlər olub

***Türkiyə Böyük Millət Məclisinin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatorları Engin Vural və Sevilay Yıldırım Naxçıvan Muxtar Respublikasına səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində də olublar.***

Görüşdə Təhsil naziri Rəhman Məmmədov qonaqları salamlayaraq muxtar respublikada təhsilin inkişafı istiqamətində görülən işlər, yaradılan müasir təhsil şəraiti haqqında məlumat verib. Bildirib ki, muxtar respublikamızda 211 ümumtəhsil məktəbi, 36 məktəbdənkənar təhsil müəssisəsi, 4 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi qayğının nəticəsidir ki, yeni yaradılan müəssisələr təhsilin sürətli inkişafına təkan verib.



Təkcə ötən il ərzində Təhsil Nazirliyinin nəzdində "Təhsil Kursları" və "Texniki Servis Xidməti" MMC, İmtahan Mərkəzi, Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey, Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində idman klubları, məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklər yaradılıb, 2020-2021-ci tədris ilindən etibarən yeni təlim metodu – STEAM təlim metodunun tətbiqinə başlanılıb, yanvar ayından isə Televiziya və Radio Verilişləri Redaksiyası Təhsil Nazirliyinin tabeliyinə verilib.

Nazir vurğulayıb ki, Naxçıvan-Türkiyə dostluq, qardaşlıq münasibətlərindən yaranan qarşılıqlı fəaliyyətin nəticəsidir ki, muxtar respublika məktəbliləri ilə Türkiyənin məktəbliləri arasında birlik-bərabərlik şüarı altında mütəmadi olaraq idman, şahmat yarışları, yoldaşlıq görüşləri təşkil edilir.

Türkiyə Respublikası Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatoru Engin Vural qonaqpərvərlik üçün minnətdarlıq edib. Qeyd olunub ki, Türkiyə Təqaüd Proqramı tələbə və tədqiqatçılara Türkiyənin ən prestijli universitetlərində təqaüd təhsili və tədqiqat imkanı verən hərtərəfli və dövlət tərəfindən dəstəklənən rəqabətli bir təqaüd proqramıdır. Bildirilib ki, proqrama bakalavr, magistr, doktorantura və tədqiqat proqramları üzrə hər bir şəxs internet üzərindən onlayn olaraq 8 dildə müraciət edə bilər.

Digər koordinator Sevilay Yıldırım isə vurğulayıb ki, təqaüd proqramları ölkələrarası işbirliyini və cəmiyyətlər arasındakı ortaq anlayışı gücləndirmək məqsədini qarşısına qoymuş gələcəyin liderlərini yetişdirməkdir. Bu proqramlar təkcə ali təhsilin hər səviyyəsində ixtisaslı beynəlxalq səviyyədə tələbə hazırlamaq deyil, həmçinin bu tələbələrin universitetə hazırlanma və yerləşdirmə proseslərini də əhatə edir.

Sonda bu səfərin gələcəkdə hər iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığa yeni təkan verəcəyi diqqətə çatdırılıb.

* * *

Türkiyə Böyük Millət Məclisinin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin nümayəndələri Naxçıvan Müəllimlər İnstitutunda da olublar. Rektor Azad Novruzov institut haqqında məlumat verib. Görüş zamanı rektor qardaş Türkiyə Cümhuriyyəti ilə təhsil əlaqələrinin olduqca mühüm əhəmiyyət kəsb etdiyini, gələcəkdə institutun professor-müəllim heyəti və tələbələrinin bu imkanlardan istifadə edəcəklərini bildirib.

Səmimi görüş zamanı tərəflər gələcək təhsil işləri sahəsində geniş fikir mübadiləsi aparıb və qarşılıqlı əməkdaşlığın yüksək nəticələr verəcəyinə inam vurğulanıb.

**Xəbərlər şöbəsi**

***"İnsan üçün ən qiymətli şey həyatdır. Həyat insana bir dəfə verilir, o həyatı elə yaşamalısan ki, səmərəsiz keçən günlər üçün sonra əzab çəkib heyifsilənməyəsən, keçən günlərin rəzaləti və alçaqlığı üçün utanmayasan. İnsan elə yaşamalıdır ki, ölərkən: mən bütün həyatımı, bütün qüvvəmi dünyada ən gözəl bir şeyə – bəşəriyyətin azadlığı uğrunda mübarizəyə sərf etdim deyə bilsin. Yaşamağa tələsmək lazımdır". Nikolay Ostrovskinin "Polad necə bərkidi" romanından Pavel Korçaginin qardaşlıq qəbiristanlığında gəzərkən həyat haqqında dediyi bu qiymətli fikirlərlə yazıya başlayıram.***

Oxunması zəruri olan kitablar

## Həyat dolu bir gəncin, ideya adamının mübarizə yolu



Bu dövrlə tanışlığım Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"nda adıçəkilən romanı oxumaqla başladı. Sərəncamda Azərbaycan yazıçıları ilə yanaşı, dünya klassiklərinin əsərlərinin də adları var. Gənclərimizin gələcəkdə özlərini dərk etməsi, gələcək inkişafı üçün atılmış bu addım, təbii ki, mütaliəyə olan marağı artırıb. Nəticədə, gənc nəslin kitab mütaliəsinə həvəsində bir dəyişiklik hiss olunmaqdadır. Aparılan çoxsaylı sorğular nəticəsində müəyyən oldu ki, adları çəkilən dünya klassiklərinin kitabları içərisində ən çox oxunanlar Qurban Səidin "Əli və Nino" romanı, Cek Londonun "Həyat eşqi", Gi de Mopassanın "Gombul", Moris Meterlinkin "Arıların həyatı", Nikolay Ostrovskinin "Polad necə bərkidi" romanlarıdır. Xüsusi seçilən bu əsərlərin hər biri ayrılıqda bir məktəb, vətənpərvərlik ideyalarının carçısıdır.

Ecazkarlığı və maraqlı həyat tərzi ilə seçilən obrazların vəhdətindən təşkil olunmuş həmin kitabların arasında yer alan "Polad necə bərkidi" romanı haqqında danışmaq yerinə düşər. Maraqlı həyat tarixçəsi olan Nikolay Ostrovskiyə məxsus romandan söz açmışkən birinci onun xüsusi seçilmiş adı ilə əsəri əlaqələndirək. Əsərdə təsvir olunan gəncin bütün həyat çətinlikləri ilə qarşılaşması, dörd dəfə ölümə qalib gəlməsi, qəhrəmanlıqları, yenilmədən mübarizə aparması, varlı kapitalist ağalarına boyun əyməməsi, hər dəfə yıxılarkən yenidən ayağa qalxmaq bacarığı, döyüşlərdə sona kimi mübarizə aparması onu polad kimi bərkitmiş, güc və iradə əxz etmişdir. Əsərdə adıçəkilən Pavka insanın düşdüyü çətinliklərdən qorxmadan, qarşılaşdığı çarəsizliklərə meydan oxuyan iradəli şəkildə sona qədər mübarizə ideyalarını təmsil edən bir obrazdır. Romanın qayəsi ideala sadiqlikdən və onun uğrunda mübarizədən bəhs edir. Adıçəkilən əsər 1930-1934-cü illərdə qələmə alınıb, avtobioqrafik əsərdir. Əsərin qəhrəmanı Pavel Korçagin, əslində, Ostrovskinin elə özüdür.

Anasının sövdələşməsi ilə 12 yaşında olarkən balaca qəhrəman bufetdə ayda 8 manat, işlədiyi günlərdə yemək yeməsi şərtilə işə qəbul edilir. Hələ kiçik yaşlarından ocaqçı köməkçisi vəzifəsində çalışan, gücü çatmayan işləri görməyə məcbur olan Pavelin balaca əlləri ilə isti-soyuq demədən zəhmətə qatlaşması onun fərqli bir düşüncə ilə böyüməsinə vəsilə olur. İndi deyəcəksiniz ki, Pavel ocaqçının köməkçisi olub, nə ağır iş görüb? Əsərlə tanış olsanız, təbii ki, bu sualı verməyəcəksiniz. Romanda Pavelin çəkdiyi əzablar, istismarlar çox canlı təsvir edilib. Oxucu özünü həmin hadisələrin iştirakçısı kimi hiss edir.

Əsərdə oxuyuruq: "Mən sutkada 13-15 saat işləyirdim. Məni döyürdülər. Məni pis işlədiyimə görə döymürdülər. Mən vicdanla işləyirdim. Ona görə döyürdülər ki, ağamın istədiyi qədər pul verə bilmirdim".

Təsvirdən də göründüyü kimi, Pavel acınacaqlı şərtlərə, zəhmətə qatlaşır. Zamanla müəyyən yaş çağına gələn Pavel ordu sıralarında mübarizə aparır, döyüşlərin birində isə ağır yaralanır. Bir gözünü itirir, 13 günlük huşsuzluqdan sonra Korçaginin huşu özünə gəlir. Bu haqda romanda yazılır. "Gənc vücud ölmək istəmirdi, qüvvəsi yenə də yavaş-yavaş özünə qayıdırdı. Bu onun ikinci dəfə doğuluşu demək idi. Hər şey yeni və qəribə görünürdü. Yalnız başı ağır bir halda hərəkətsiz olaraq kirəc qutu içərisində sıxılmışdı, onu tərpətmək mümkün deyildi". Həyat eşqi, yaşamaq, ona çətinliklərin öhdəsindən gəlməyi öyrədir. Romanda iradəli, dözümlü gənc Pavka ilə yanaşı, dostcanlı, məğrur, namuslu bir Pavkanın da şahidi oluruq. Klimka, Seryoja, Juxray, Fyodor, Suxarko və qardaşı Artyom onun ən yaxın dostları olur. Heç bir vəchlə onları ələ vermir. Viktor Leşşinskinin ona xəyanəti nəticəsində tutulsa da, polkovnik Çernyakın dustaqları həbsdən azad etməsi ilə o da azadlığına qovuşur.

Hadisələrin cərəyan etdiyi bir zamanda Korçagin qarın yatalağı və ağciyər iltihabından da əziyyət çəkir. Davamlı xəstəliklərə düçar olan Korçagin barəsində yazılır: "Bir neçə saatdan sonra onu bu halda tapdılar. Baraka gətirdilər. Pavka ağır-ağır nəfəs alır və adam tanımırdı. Zirehli qatardan çağırılmış feldşer xəstəliyi belə təyin etdi: "Ağciyər iltihabı və qarın yatalağıdır. Hərarəti 41.5. Donmuş bədəni və boynundakı şiş haqqında danışmağa dəyməz – əhəmiyyətsiz şeylərdir. Gəncin ömrünün sizə bağışlanması üçün iki əvvəlki xəstəlik kifayətdir".

Çox çətin olsa da, ordu sıralarından ayrılmalı olur. Ernest Heminquey kimi özünə qəsd etmək barədə düşündüyü zamanlar da olur. Ağır depressiyaya düşür. Xəstəxanada müalicə üçün yatdığı vaxtlarda bir tibb bacısı onun çox yaxşı nağıl etmək qabiliyyətinin olduğunu vurğulayır. Və yarızarafatla: "Xatirələrini kağıza yazmağa başla" deyəndən sonra Ostrovskidə kitab yazmaq həvəsi meydana gəlir. Təbii ki, yaxşı, düzgün yazılar üçün sürətli mütaliə gərək idi. O, yarımil ərzində özünü bu sahədə püxtələşdirir. Roman yazmağa başlayır. "Polad necə bərkidi" romanı belə həyat təcrübəsindən sonra meydana gəlir. İlk hissələrini özü yazsa da, sonralar gözü tutulduğu üçün bu yolda ona xanımı Raya köməklik edir. Onun diktə etdiyi hissələri qələmə alır, beləliklə, roman tamamlanır. Təxəyyülü və canlandırdığı öz obrazı birləşərək çox mükəmməl bir surət ortaya çıxır. Həyat dolu bir gəncin, ideya adamının alovlu mübarizəsi, sona qədər dayanıqlı duruşu əsərin əzəmətinin göstəricisidir.

Pavel Korçagin elə bir mübarizlik simvolu olub ki, zaman keçsə də, onun vətənpərvərlik ideyaları bu günün də əsas nəbzidir. Elə bu səbəbdən idi ki, XX əsr yazıçılarının əsərlərində Pavka obrazına bir heyranlıq duyulmaqdadır. Naxçıvanlı şair, yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi İslam Səfərlinin "Göz həkimi" pyesində də bu barədə yazılıb: "Pavel Korçagin əgər geoloq İvanovu görsəydi "Polad necə bərkidi" romanını ikinci dəfə yazardı".

***P.S.*** Əsərdən də gördüklərimiz, öyrəndiklərimiz odur ki, həyatın mənası mübarizə aparmaqdadır. Bu hər bir insanın öz əlindədir. Həyatın mənası çox şeydən asılıdır. Əgər insan zəhmətə qatlaşaraq çətin şərtlərlə yaşayırsa, bu onun ideyalarını, arzularını gerçəkləşdirməyə əsas verə bilməz. Hazırda oxumaq, yazıb-yaratmaq, mütaliə etmək, həyatdakı arzulara çatmaq yaşamağın ən gözəl vasitələridir. Romanda da bu barədə oxuyuruq: Pavka şəraitsizliklərə baxmayaraq, mütaliəyə böyük həvəs göstərir. Əsərdə Amerika yazıçısı Cek Londonun "Dəmir pəncə", italyan yazıçısı Rafaello Covanyolinin "Spartak", Etel Lilian Voyniçin "Ovod" romanlarının adı çəkilir. Bu da əsəri qələmə alanın nə qədər dünyagörüşlü olduğunu, əsərin isə dərin və düşündürücü məzmununu ortaya qoyur. Müəllif vətəni, ailəsi, xalqı, bir sözlə, bəşəriyyətin azadlığı uğrunda gedən mübarizələrdə qəhrəman Pavkanı nümunəvi vətəndaş, ölkənin taleyini düşünən bir obraz kimi canlandırır.

Türkan HÜSEYNLİ

## Vaksinasiya başladı

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Muxar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya fəaliyyət göstərir. Komissiyanın təşkilatçılığı ilə bir neçə tibb müəssisəsində COVID-19 xəstəliyinə qarşı vaksinasiya aparılıb. Peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan səhiyyə işçilərinə vurulub. Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim və tibb personalı təhlükəsizliyinə və effektivliyinə görə seçilən "Sinovac" vaksininə cəlb olunub.



Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında da vaksinasiya prosesi planlı şəkildə və uğurla aparılıb. 52 nəfər tibb heyəti müayinədən sonra vaksinasiyadan keçirilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında da 87 tibb işçisi müayinə edildikdən sonra peyvənd olunub. Vaksinasiyadan Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin tibb heyəti də yararlanıb. Bədən hərarəti 37 dərəcədən yüksək olanlara peyvənd vurulmayıb. Ümumilikdə, 73 nəfərdə aparılan vaksinasiya zamanı heç bir narahatlıq müşahidə olunmayıb.

Qeyd edək ki, vaksinasiya prosesi muxtar respublikanın bütün rayon, şəhər tibb müəssisələrində də aparılacaq.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Şahmat birinciliyi olub



***Naxçıvan Muxtar Respublikası Şahmat Mərkəzində "Şahmat beyinin gimnastikasıdır" devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin komandaları arasında şahmat birinciliyi keçirilib.***

Birincilikdə 17 komandanın hər birinin tərkibində 2 qız, 4 oğlan olmaqla, ümumilikdə, 102 şahmatçı iştirak edib.

Olimpiya sistemi üzrə keçirilən yarışın yekun nəticəsinə əsasən 3 nömrəli tam orta məktəbin komandası I, Naxçıvan Qarnizonu tam orta məktəbinin komandası II, 12 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüb.

Taxtalar üzrə isə məktəblilərdən I taxtada Elçin İsmayılov, II taxtada Aydın Bəbirli, III taxtada Almara İbrahimbəyli, IV taxtada Şahin Ağayev, V taxtada Fatimə Həsənova, VI taxtada Zöhrə Həsənova I yerə layiq görülüb.

Sonda qalib komandalar mükafatlandırılıblar.

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi*

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İstehlakçıların mal haqqında məlumat almaq hüququ milli qanunvericilikdə necə təsbit olunmuşdur?*

**Cavab:** İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən satıcı alıcını maraqlandıran malın qiyməti, istehlak xassələri (ərzaq malları barəsində isə həm də tərkibi, yararlılıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir.

Satılan mal barəsində yanlış məlumatın və ya kifayət qədər dolğun olmayan məlumatın verilməsi, istehlakçının lazımi xassələrə malik olmayan malı almasına səbəb olmuşdursa, onun müqaviləni ləğv etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır.

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti*

## Tələbələr Ağbulaq Xizək Mərkəzində təlim keçiblər



Naxçıvan Dövlət Universiteti və Naxçıvan Gənclər Fondunun birgə təşkilatçılığı ilə universitetin Bədən tərbiyəsi və idman, Məşqçilik ixtisaslarının tələbələri Ağbulaq Xizək Mərkəzində təlim keçiblər. Təlim başlamazdan öncə universitetin rektoru, dosent Elbrus İsayev "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na əsasən universitetdə müxtəlif idman növləri üzrə keçirilən məşğələlərdən danışıb. Qeyd edilib ki, muxtar respublikada yeni xizəkçilik idman növünə olan maraq nəzərə alınaraq ali təhsil ocağının Məşqçilik ixtisasının tələbələri üçün xizəkçilik fənninin tədrisinə başlanılıb, bu istiqamətdə artıq tədris proqramları hazırlanıb. Çıxışda muxtar respublikanın turizm potensialını nəzərə alaraq bu sahədə görülən işlərin gələcəkdə bu idman növü üzrə peşəkar kadrların hazırlanmasına öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev muxtar respublikada gənclərə və idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün "Qış məktəbləri" də bu istiqamətdə görülən işlərə bariz nümunədir.

Sonra tələbələr Ağbulaq Xizək Mərkəzində onlar üçün təşkil edilən təlimdə iştirak ediblər və mərkəzin ixtisaslı müəllimlərindən dərs alıblar. Təlim maraqlı və yaddaqalan olub.

*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 101